# Qubanın kompleks şəkildə inkişafı diqqət mərkəzindədir

**Təkrarsız təbii gözəlliyə malik şimal incisi qədim Quba inkişaf yolundadır. Son bir ildə şəhər öz simasını tamamilə dəyişib. Gözoxşayan, yaraşıqlı, gözəl bir məkana çevrilib. Qadir insan əlləri bu şəhərin gözəlliyinə əlavə bir rəng qatıb. Burada hər addımbaşı bir coşğunluq, qaynar iş ahəngi duyulur. Şəhərin mərkəzi əsl tikinti meydançasını xatırladır. Küçələr yenidən qurulur, köhnə evlərin yerində hündür mərtəbəli binalar ucaldılır. Şəhərin arxitekturasına yeni-yeni çalarlar əlavə olunur.**

Geniş bir ərazidə salınmış müasir xidmət mərkəzi - “ASAN xidmət” kompleksi şəhərin ən gözəl guşəsidir. Hər gün yüzlərlə adamın üz tutduğu bu məkanda insanların rahatlığı üçün hər cür şərait yaradılmışdır. Açılışında möhtərəm Prezidentimiz cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da iştirak etdiyi Quba “ASAN Həyat” kompleksində on dövlət qurumu tərəfindən 32 növ xidmət göstərilir. Eyni zamanda, özəl şirkət və müəssisələr də daxil olmaqla ümumilikdə vətəndaşlara 250-yə yaxın müxtəlif xidmət növü təklif olunur. Hazırda Quba “ASAN Həyat” regional kompleksindən Quba, Qusar, Xaçmaz və Şabran rayonları ərazisində qeydiyyatda olan 500 minə yaxın vətəndaş yararlanır.

Rayonun iqtisadiyyatında son dərəcə mühüm əhəmiyyət kəsb edən Quba şəhərində “Azərxalça” ASC-nin filialı, əsaslı şəkildə yenidən qurulan 32 kilometrlik Rustov-Xanəgah-Gürdəh, Rustov-Növdün-Şuduq, Rustov-Baxçalı-Yekdar avtomobil yollarının istifadəyə verilməsi də son bir ilin diqqətəlayiq hadisələrindəndir.

Dünənə qədər adamın gözlərini yoran köhnə mənzərələrdən əsər-əlamət qalmayıb. Gülə-çiçəyə, yaşıllıqlara qərq olmuş parklar, yenicə asfaltlanmış küçələr, xiyabanlar göz oxşayır, könül açır. Şəhərdə yenicə istifadəyə verilmiş Gənclər parkı hamının sevimli istirahət yerinə çevrilib. Təqdirəlayiq haldır ki, şəhər tələsik qərarlar əsasında yox, planlı şəkildə, zövqlə tikilir. Hər bir tikili dönə-dönə memar-mühəndis süzgəcindən keçir. Rayonun başbilənləri, necə deyərlər, yüz ölçüb, bir biçirlər. Bir sözlə, Quba yenidən tikilir, yenidən qurulur. Geniş quruculuq işləri rayon sakinlərini də qəlbən razı salır. Onlar öz qədim və doğma şəhərini bax beləcə, gözəl görmək istəyirlər. Qubalılar son yeniliklər barədə fəxrlə danışır, bu qayğı və diqqətə görə ölkə başçısına, hörmətli Prezidentimiz İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildirirlər.

Sürətli inkişaf təkcə şəhərdə deyil, rayon mərkəzindən çox-çox uzaqlarda yerləşən kənd və qəsəbələrdə də gedir. İllərlə yolsuzluqdan əziyyət çəkən dağ kəndlərinin sakinləri bu gün qapısını rahat, asfalt örtüklü yola açır. Kəndlərin yüksəlişi təkcə bununla bitmir. Onların sosial-məişət məsələləri də beləcə uğurla həll olunur. Kəndlərə içməli su xətləri çəkilir, qazlaşdırılır, köhnə elektrik sistemi yenidən qurulur.

İqtisadiyyatda da nəzərəçarpaq dərəcədə irəliləyişlər vardır. Rayonda kənd təsərrüfatı ən müasir texnologiyalara əsaslanır. Bağçılıq intensiv yolla inkişaf edir. Rayonda yerləşən Meyvəçilik-Çayçılıq Elmi-Tədqiqat İnstitutunun əsaslı təmir olunması aqrar sahəyə dövlət qayğısının yeni təzahürüdür. Burada müasir avadanlıqlarla təchiz olunmuş torpaq, bitki və su analizi ilə məşğul olan aqroekologiya və analiz, bitkilərin mikroklonal çoxaltma üsulu ilə artırılması laboratoriyaları yaradılıb. Laboratoriyalarda alınmış bitki sortlarının böyüdülməsi və uyğunlaşdırılması məqsədilə xüsusi istixana və tingçilik kompleksi tikilib. Bütün bunlar nəinki rayonda, regionda meyvəçiliyin inkişafına böyük təkandır. Onu da qeyd edək ki, institut Almaniyanın, Fransanın, İspaniyanın, İngiltərənin, Çinin, Belarusun şirkət və institutları ilə əməkdaşlıq edir.

> **Quba şəhərinin inkişafına həmişə böyük diqqət göstərilmişdir. Mən Prezident kimi, Quba rayonuna 10 dəfə səfər etmişəm. Bu, 11-ci səfərdir. Səfərlər zamanı bir çox obyektlərin açılışında iştirak etmişəm. Quba rayonunun inkişafı ilə bağlı çox ciddi tapşırıqlar verilmişdir. Onlar da uğurla icra edilir. Rayonda infrastruktur layihələri icra edilir.**
>
> **İlham ƏLİYEV,**
> **Azərbaycan Respublikasının Prezidenti.**

Bu gün Quba həm də respublikamızın geniş turizm potensialına malik rayonlarından biridir. Burada turizm istiqamətləri gündən-günə artmaqdadır. Diqqətçəkən məqam odur ki, xarici turistlər bu gözəl diyara istirahət üçün təkrar-təkrar gəlirlər. Çoxlu sayda xarici turistin baş çəkdiyi bu şəhərin tarixi, mədəniyyəti və məişət məsələlərinə də xüsusi diqqət yetirilir. Mədəniyyət abidələrində təmir-bərpa işləri aparılır.




Qubada əhaliyə yüksəkkeyfiyyətli tibbi xidmətin göstərilməsi üçün dövlətimiz tərəfindən çox gözəl şərait yaradılmışdır. Bu günlərdə istifadəyə verilmiş 230 çarpayılıq Mərkəzi Xəstəxananın binası ən müasir standartlara uyğundur. Burada əhaliyə hər cür tibbi xidmət göstəriləcəkdir. Onu da qeyd edək ki, bundan əvvəlki illərdə ölkə Prezidentinin bilavasitə təşəbbüsü ilə Müalicə-Diaqnostika Mərkəzi istifadəyə verilmişdir. Burada nəinki rayonun, büün şimal regionunun əhalisinə müasir tibbi xidmət göstərilir.

Cari ilin arxada qalan aylarında da Qubada görülən işlər, baş verən yeniliklər çoxdur. Bu barədə cari ilin 9 ayınının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrlə bağlı keçirilən yığıncaqda **rayon icra hakimiyyətinin başçısı Ziyəddin Əliyevin** hesabat məruzəsində daha ətraflı bəhs olundu. RİH başçısı məruzəsində qeyd etdi ki, ölkəmizin hər yerində olduğu kimi, rayonumuzda da 2018-ci ilin 9 ayı ərzində xeyli iş görülmüş, qarşıya qoyulmuş vəzifələrin maksimum həllinə səy göstərilmişdir. Rayonun iqtisadiyyatında inkişaf artan templə müşahidə olunmuşdur. Rayon üzrə ümumi məhsul buraxılışının həcmi 9 ay ərzində 297 milyon 763 min 700 manat (ötən ilin müvafiq dövrü ilə müqayisədə 12 faiz artım), sənaye məhsullarının ümumi həcmi 20 milyon 974 min 900 manat, (ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 faiz artım), kənd təsərrüfatı məhsullarının həcmi 131 milyon 925 min 400 manat (ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 faiz artım) olmuşdur.

Rayonda iqtisadiyyatın aparıcı qolu olan özəl sektorun inkişafına diqqət yetirilir. Sahibkarların təklif etdiyi 20 layihəyə Sahibkarlığın İnkişafı Fondu tərəfindən 336 min 500 manat vəsait ayrılmış və nəticədə 32 iş yeri açılmışdır.

Kənd təsərrüfatının inkişafı ilə bağlı da rayonda bir sıra işlər görülmüşdür. Cari il üçün 10 min 284 hektarı buğda, 1992 hektarı arpa sahəsi əkilmişdir ki, bu sahələrdən də müvafiq olaraq 24 min 707 ton buğda, 4183 ton arpa istehsal olunmuşdur. Rayon üzrə hazıradək 12 min 228 ton kartof, 1234 ton kələm, 1499 ton xiyar, 6096 ton pomidor, 2217 ton soğan, 625 ton sarımsaq və 537 ton sair tərəvəz məhsulları toplanmışdır. Ötən 9 ayda rayon üzrə 101 min 800 ton alma, 3023 ton armud, 2249 ton gilas, 2249 ton gavalı, 349 ton alça, 499 ton fındıq və qoz tədarük edilmişdir.





Rayon əhalisinə göstərilən xidmətlərin səviyyəsi də xeyli yüksəlmişdir. 2018-ci ilin 9 ayı ərzində rayonda əhalinin fasiləsiz təbii qazla, elektrik enerjisi, içməli su, internet və telefon xidmətləri ilə təmin edilməsi üçün bir sıra tədbirlər həyata keçirilmişdir.

Rayonda tikinti, abadlıq və quruculuq sahəsində nəzərdə tutulmuş işlər sürətlə və yüksək keyfiyyətlə həyata keçirilmişdir. Şəhərin Heydər Əliyev prospektinin yuxarı hissəsində, 5-ci məhəllə ərazisində yeni üslubda və bütün müasir tələblərə cavab verən, ikimərtəbəli 100 yerlik uşaq bağçasının, inşasına 2014-cü ildən başlanmış rayon mərkəzi xəstəxanasının müasir tipli yeni binasının, həmçinin tikintisinə bu ilin fevral ayında başlanmış 660 kvadratmetr ərazidə yüksək zövqlə salınmış yeni “Gənclər Parkı”nda işlər başa çatdırılaraq əhalinin istifadəsinə verilmişdir. Şəhərdə olan 45 ədəd çoxmənzilli yaşayış binasının 34 min kvadratmetr dam örtüyü dəyişdirilmiş, Heydər Əliyev prospekti 1, 2A və 2V ünvanda və Heydər Əliyev prospekti 196 ünvanda yerləşən 5 mərtəbəli binaların fasadları əsaslı təmir olunmuş, binalara yeni üzlük materialları vurulmuşdur. Köhnə avtovağzal ərazisindəki 5 mərtəbəli binanın fasadının yüksək keyfiyyətlə təmir edilməsi və piyada keçidinin müasir dizaynla yenidən qurulması əraziyə yeni görkəm vermişdir. Bundan əlavə, şəhərdə aparılan abadlıq işləri çərçivəsində köhnə avtovağzal ərazisində 380 kvadratmetr səkilər tametlə üzlənmiş, 1400 kvadratmetr asfalt örtüyü yenilənmişdir.

Hesabat dövründə Quba şəhərində yeni parklar, yaşıllıq zonaları və güldanlıqlar salınmış, yeni işıqlandırma sistemləri qurulmuşdur. Quba şəhərinin ərazisində, Bakı-Quba, Quba-Xaçmaz və digər istiqamətlərdə yol kənarları boyunca ağacların budanması, ağac gövdələrinin ağardılması, yol kənarlarında genişmiqyaslı təmizlik və səliqə-sahman işləri həyata keçirilmişdir. Rayonun giriş hissəsində, İdrisqışlaq kəndinin ərazisində “Giriş-qala” kompleksi inşa edilmiş, kompleksin ətrafında yaşıllıq zolağı salınaraq abadlaşdırılmışdır. Ərazidə müasir işıqlandırma sistemi qurulmuşdur. Bakı-Quba yolunun İqrığ kəndi ərazisində yol kənarında iki, Paşaoba kəndi ərazisində iki və Quba-Xınalıq yolunun Qımılqazma kəndi ərazisində bir ədəd bazar tikilərək əhalinin istifadəsinə verilmişdir.

Rayonda məktəb tikintisi də sürətlə davam etmişdir. Zərqova kənd tam orta məktəbində daxili imkanlar hesabına aparılan əsaslı təmir işləri başa çatdırılmışdır. Rayonun daha 8 kəndində modul tipli məktəb binalarının tikintisi məqsədilə dövlət başçısı 2 fevral 2018-ci il tarixdə müvafiq Sərəncam imzalamışdır. Nütəh, Qarxun, Çarxaçu, Dərk, Cimi, Rük, Alıc və Zıxır kəndlərində yeni modul tipli məktəb binalarının tikintisi işlərinə yay aylarında başlanılmışdır. Alıc kənd ibtidai məktəbinin modul tipli binası artıq istifadəyə verilmiş, digər məktəblərin binaları isə yaxın vaxtlarda istifadəyə veriləcəkdir.

2018-ci ilin ən böyük layihələrindən biri olan və Quba şəhərinin xarici görünüşünü əsaslı şəkildə dəyişdirəcək “Yeni Quba” yaşayış massivinin tikintisidir. Hazırda tikintidə işlər sürətlə davam edir.

Rayonun avtomobil yollarının yenidən qurulması, təmiri və yol kənarlarının abadlaşdırılması istiqamətində də bir sıra tədbirlər həyata keçirilmişdir. Şabran rayonunun Gəndov kəndi ərazisindən başlayaraq Quba şəhərinin yuxarı hissəsinə, Fətəli xan küçəsinin sonunadək 46 kilometr uzunluğunda avtomobil yoluna yenidən asfalt örtük döşənmişdir. Quba-Qonaqkənd yolunun Təngəaltı kəndindən keçən hissəsində 3 kilometr məsafədə, Qonaqkənd qəsəbəsinin daxilində isə 500 metr məsafədə yolun asfaltlanma işləri aparılmışdır. Quba-Xınalıq yolunun Qımılqazma kəndi ərazisində yol genişləndirilmiş və yolun kənarına piyada səkiləri quraşdırılmışdır.

Yol hərəkətinin rahat tənzimlənməsi məqsədilə Bakı-Quba yolunun 164-cü kilometr hissəsində, şəhərin Heydər Əliyev prospektinin Bakı şəhəri və Xaçmaz rayonu istiqamətləri, həmçinin Vaqif küçəsi ilə kəsişməsində yerləşən dairənin yenidən qurulması təmin edilmişdir.



Hesabat dövrü həm də rayonda bir sıra ictimai-siyasi tədbirlərlə yaddaqalan olmuşdur. Ən mühüm siyasi hadisə isə möhtərəm Prezidentimizin müvafiq Sərəncamı ilə 11 aprel 2018-ci il tarixə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkilərində rayon üzrə seçicilərin 76.93 faizi iştirak etmiş və onlardan da 86,62 faizi cənab Prezident İlham Əliyevə səs vermişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünün rayonda yüksək səviyyədə qeyd olunması məqsədilə geniş tədbirlər planı hazırlanmış və rayonun bütün idarə, müəssisə və təşkilatlarında, hər bir yaşayış məntəqəsində bu ölməz tarixi şəxsiyyətin əziz xatirəsinə həsr olunmuş çoxsaylı tədbirlər təşkil edilmişdir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin 10 yanvar 2018-ci il tarixdə imzaladığı və cari ilin respublikamızda “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan edilməsi barədə Sərəncama əsasən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rayonumuzda müxtəlif səpkili çoxsaylı tədbirlər, konfranslar, müsabiqələr, sərgilər və idman yarışları keçirilmişdir.

31 mart 2018-ci il tarixdə azərbaycanlıların soyqırımının 100-cü ildönümü ilə əlaqədar rayonda respublikamızın bir sıra dövlət rəsmilərinin, çoxsaylı qonaqların və minlərlə rayon sakininin iştirakı ilə Quba Soyqırım Memorial Kompleksinə yürüş və Kompleksdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Soyqırımların dərsləri” mövzusunda respublika elmi konfransı keçirilmişdir. Bu tədbirlərdə bir sıra rəsmi şəxslər, millət vəkilləri, tanınmış elm xadimləri, Azərbaycandakı müxtəlif dini konfessiyaların rəhbərləri, xarici qonaqlar iştirak etmişlər.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin təşəbbüsü ilə artıq beşinci ildir ki, reallaşan “Ölkəmizi tanıyaq” layihəsi çərçivəsində 40 nəfər rayon məktəblisi Lənkəran-Masallı-Astara marşurutu üzrə doqquzuncu turaksiyada iştirak etmiş, respublikamızın 17 şəhər və rayonundan olan 700 nəfərə yaxın məktəbli isə rayonumuzun görməli yerləri ilə tanış olmuşlar.

23 may 2018-ci il tarixdə Quba Olimpiya Kompleksində Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş ümumrespublika “Ailə Bayramı” keçirilmişdir.

Ötən dövrdə məktəblərin maddi-texniki bazasının gücləndirilməsi, təlim-tərbiyənin keyfiyyətinin artırılması, şagirdlərin milli-mənəvi tərbiyəsinin inkişaf etdirilməsi və digər istiqamətlərdə müəyyən işlər görülmüşdür. Zərqova kənd tam orta məktəbində daxili imkanlar hesabına aparılan əsaslı təmir işləri başa çatdırılmışdır. Rayonun daha 8 kəndində modul tipli məktəb binalarının tikintisi məqsədilə möhtərəm Prezidentimiz cənab İlham Əliyev 2 fevral 2018-ci il tarixdə müvafiq Sərəncam imzalamışdır. Nütəh, Qarxun, Çarxaçu, Dərk, Cimi, Rük, Alıc və Zıxır kəndlərində yeni modul tipli məktəb binalarının tikintisi işlərinə yay aylarında başlanılmışdır. Alıc kənd ibtidai məktəbinin modul tipli binası artıq istifadəyə verilmiş, digər məktəblərin binaları isə yaxın vaxtlarda istifadəyə veriləcəkdir.



Bu il ali məktəblərə qəbul imtahanlarında 1266 nəfər abituriyent iştirak etmişdir ki, onlardan da 515 nəfəri (41 faiz) tələbə adını qazanmışdır. Tələbə adını qazananların 407 nəfəri rayonun tam orta məktəblərinin builki məzunları olmuşdur. Ötən tədris ilini 1 nəfər qızıl, 1 nəfər isə gümüş medalla başa vurmuşdur. Rayon təhsil şöbəsinin tabeçiliyində olan məktəblər üzrə qəbul imtahanlarında 80 nəfər məzun 500-dən, 30 nəfər məzun isə 600-dən artıq bal toplamışlar.

Möhtərəm Prezidentimizin tapşırığına əsasən bu il də rayon əhalisi fevral ayının 15-dən may ayının 15-dək tibbi profilaktik müayinəyə cəlb olunmuşdur. Qeyd olunan dövrdə 88 min 445 nəfər əhali tibbi profilaktik müayinəyə cəlb olunmuşdur.

Mədəni maarif müəssisələrinin fəaliyyətinə də xüsusi diqqət yetirilmişdir. Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin binasında əsaslı təmir işləri başa çatdırılmış, rayon icra hakimiyyəti tərəfindən kitabxanaya 550 adda 7495 nüsxə ədəbiyyat hədiyyə edilmişdir. 2018-ci ilin 9 ayı ərzində Quba Soyqırımı Memorial Kompleksini 6 min 758 nəfəri xarici ziyarətçilər olmaqla, ümumilikdə 75 min 307 nəfər ziyarət etmişdir. Hesabat dövrü ərzində Quba Turizm İnformasiya Mərkəzinə 8870 nəfər turist müraciət etmişdir ki, bunlardan 7748 nəfəri yerli, 1122 nəfəri isə xarici vətəndaşlar olmuşdur.

Ötən müddətdə rayonda yeniyetmə və gənclərlə bağlı bir sıra maarifləndirici tədbirlər və idman yarışları keçirilmişdir. 2018-ci ilin 9 ayı ərzində keçirilən zona və respublika səviyyəli idman yarışlarında rayonumuzu 301 nəfər idmançı təmsil etmiş, 43 qızıl, 33 gümüş və 30 bürünc medal olmaqla ümumilikdə rayona 106 medalla qayıtmışlar.

Hesabat dövrü ərzində keçirilən beynəlxalq idman yarışlarında isə rayonumuzu 17 nəfər idmançı təmsil etmiş, rayona 7 qızıl, 1 gümüş, 3 bürünc medal olmaqla ümumilikdə 11 medalla qayıtmışlar.

19 iyul və 20 sentyabr 2018-ci il tarixlərdə rayon icra hakimiyyətinin təşəbbüsü ilə Mərkəzi Qan Bankının Quba bölməsində ehtiyacı olan xəstələrə yardım məqsədilə qanvermə aksiyaları təşkil olunmuş, həmin aksiyalarda 200 nəfər vətəndaş qan vermişdir.

2018-ci ilin doqquz ayı ərzində Quba rayonunda dini sahədə sabitliyin qorunaraq daha da möhkəmləndirilməsi, multikultural və tolerant dəyərlərimizin təbliği, qeyri-ənənəvi dini təriqətlərin və dini radikalizmin fəsadları ilə bağlı rayon icra hakimiyyəti tərəfindən aidiyyəti təşkilatlarla birlikdə çoxsaylı maarifləndirici tədbirlər keçirilmişdir. Tədbirlərdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi əsasında çəkilmiş “Şəhadət” sənədli filmi nümayiş etdirilmişdir. Rayon icra hakimiyyəti tərəfindən Ramazan və Qurban bayramları münasibətilə silsilə tədbirlər keçirilmiş, iftar süfrələri təşkil olunmuş, ehtiyacı olan şəxslərə ərzaq yardımları və əlil arabaları verilmişdir.

Bəli, qədim Quba öz sürətli və yeni inkişaf dövrünü yaşayır. Bu inkişaf bütün istiqamətlərdə hiss olunur. Rayon həyatının hər bir sahəsində işlər, demək olar ki, eyni ahənglə davam edir. Möhtərəm Prezidentin söylədiyi kimi, **— Quba rayonunun kompleks şəkildə inkişafı diqqət mərkəzindədir. Sosial-infrastruktur layihələrimiz, iş yerləri ilə bağlı olan layihələr, turizm, kənd təsərrüfatı. Rayon bu istiqamətdə bundan sonra da inkişaf edəcək. Əlavə göstərişlər də veriləcək.**

Ölkə Prezidentinin bir gündə imzaladığı “Quba-Qonaqkənd avtomobil yolunun tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında”, “Quba rayonunun Susay-Xınalıq avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında”, “Quba rayonunun Alekseyevka kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında”, “Quba şəhərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair tədbirlər haqqında” sərəncamları Qubanın sosial-iqtisadi inkişafı sahəsində atılan çox mühüm addım və rayona göstərilən dövlət qayğısının parlaq təzahürüdür.

***Ziyafəddin BAYRAMOV,***
***“Respublika”.***








